Ədəbiyyat qəzeti

Kamal ABDULLA:

"Qarabağda mənəvi birliyə nail olduq"

Akademik Kamal Abdulla Türkiyənin "Yeni Şəfəq" qəzetinə müsahibə verib.

Azərbaycanın Ermənistan qarşısında qazandığı hərbi və diplomatik zəfərin fərqli cəhətləri küçəyə axışan xalqda, sənətdə, sosial mediada özünü göstərir. Azərbaycan Dillər Universitetindən akademik Kamal Abdulla bu barədə "Geneoloji birlik bu gün əqidə, mənəvi birlik qədər önəmli deyil. Baxın, bu son savaşda biz yanımızda ilk olaraq Türkiyəni gördük, ondan sonra Pakistanı gördük. Məncə, biz mənəvi, ruhani birliyi daha üstün tutmalıyıq. Bu çətirin altına isə bir çox başqa xalqlar da gələ bilər." - deyir.

Ermənistan işğalından azad edilən Dağlıq Qarabağda dəyişiklər davam edir. Azan səsləri təzədən yüksəlir, yurda qayıdış, Azərbaycan bayraqlarıyla bəzənmiş bölgədə üzlər gülür. Əsərləriylə Türk ədəbiyyatı tarixinə xidmətləri olan Azərbaycan Dillər Universitinin rektoru, akademik Kamal Abdulla, ilk əsərləri sənətçilərdən qabaq əsgərlərin yazdığı deyir. "Yeni Şəfəq"in bazar əlavəsi kimi Türkiyə ilə Azərbaycan arasındakı təhsil, mədəniyyət siyasətinə dəstək olan Bakı Yunus Əmrə İnstitutu vasitəsilə reallaşdırdığımız müsahibədə Kamal Abdulla ilə Qarabağın qiyməti, ədəbiyyatı və zəfəri haqqında danışdıq.



"Kemal Abdulla ile konuşurken hocanın işaret ettiği bir takım yeni konuları önümdeki kağıtta not ettim, sohbetin sonunda katlayıp kitabımın arasına koydum. Bunlar hocanın yazmak için zaman bulamadığı konulardır. Kim bilir, belki bir gün yazılır. Dede Korkut Kemal Abdulla'nın ta akademik hayatın başında ilgi alanına girmiş ve bir daha da hiç çıkmamış. Hala bir şekilde Dede Korkut üzerine düşünmeye devam ediyor. Destanın kıymetinin doğru tespit edilebilmesi için başka milletlerin destanlarını da bilmek, benzerleriyle kıyaslamak gerekir tabii olarak. Kemal Hoca bunu da yapıyor. Birçok milletin bilinen destanlarını okumuş. Konuşurken örnekler veriyor, mukayese yapıyor. Sıkı bir Dede Korkut dersi dinliyoruz..."

Bahtiyar ASLAN (Türkiye)
Bandırma On Yedi Eylül Üniversitesi İnsan ve Toplumbilimleri Fakültesi Türk Dili ve Edebiyatı bölümü öğretim üyesi, Doç. Dr.

Özünəinam geri qayıtdı

- Qarabağ zəfəri uşaqdan qocaya hər yaşdan insanı xoşbəxt etdi. Millətin gözündə bu zəfərin, Qarabağın əhəmiyyəti nədir?

- Qarabağ vətənin bir parçasıdır. Vətənin bütün parçaları əziz və müqəddəsdir. Zəfərin isə önəmi hər şeydən əvvəl əsgərin və millətin özünün özünə inamının qayıtması, dövlətinə, bayrağına, Prezidentinə sədaqətinin sarsılmaz olduğunu ortaya qoymasıdır. Biz zəfər çaldıq, deməli, biz bunu etdik.

- Türk dünyasının birliyi biz türklər üçün nəyi ifadə edir?

- Bunun qarşısında son dərəcə təbii manеələr durur. Dünya inkişaf edir. German xalqları birliyi deyilən bir birlik yoxdur, onlar sürəkli müharibələrdədirlər. Slavyan birliyi göz qarşısında tənəzzül edir. Roman xalqlarının birliyindən danışmaq da, sanıram, korrekt deyil. Geneoloji birlik bu gün əqidə, mənəvi birlik qədər önəmli deyil. Baxın, bu son savaşda biz yanımızda ilk olaraq Türkiyəni gördük, ondan sonra Pakistanı gördük. Xəzərdən o tərəfdəki türkdilli dövlətlər də, inanıram ki, yeri gələndə öz sözlərini dedilər, amma Azərbaycan həqiqəti bu zaman artıq hamıya bəlli idi. Məncə, biz mənəvi, ruhani birliyi daha üstün tutmalıyıq. Bu çətirin altına isə bir çox başqa xalqlar da gələ bilər. Dünyanı türk birliyi kimi qorxulu bir vaqcə ilə təlaşlandırmadan, hər addımbaşı bunu şüara çevirmədən başqa ənənəvi olaraq bizi sevən xalqları da öz içinə yığan türk birliyi!! Buna nail olmaq məncə, daha perspektivlidir.

- Uğurlu razılaşmadan sonradan nələr ediləcək? Azərbaycan xalqının gözləntisi nədir?

- Geri qaytarılan yerlərin mənzərəsini siz yəqin ki görmüsünüz. Bu gün bizim əsas vəzifəmiz oraları dirçəltmək, təbiətin olanı təbiətə qaytarmaq, insanın olanı insana qaytarmaqdır. Və yaşamaq. Əbədiyyən bu torpaqlarda yaşamaq. Dünyaya bir daha sübut etmək ki, biz bu torpaqlara layiqik. Bu isə o deməkdir ki, ən qədim zamanlardan bu yerlər bizim əcdadlarımıza məxsus olmuşlar. Onların və vətən uğrunda şəhid balalarımızın, qardaşlarımızın Qarabağ səmasında dolaşan ruhları bu gün şaddır. Bu bizə təskinlik, qürur və cəsarət verir. Bir-birimizin və hamının üzünə dik baxmaq cəsarəti. Mənim gözləntim odur ki, millətimin bütün övladları bu cəsarəti ləyaqətlə yaşasın.

Sənətçilər müharibə ruhunu hiss etməlidir

- Azərbaycanın 30 illik mübarizəsində xeyli ədəbi-mədəni əsər ortaya çıxdı, xüsusilə şeirlər yazıldı. Sizcə Qarabağ ədəbiyyatda, kinematoqrafiyada, mədəniyyətdə lazımınca ifadə olundumu? Nələr etmək olar?

- Sanıram ki, bunun üçün bir qədər zaman keçməsi lazımdır. Sənət adamları əskərin getdiyi o bəzən gedilməz yolları bir-bir getməli, o meşələrin, çəmənlərin, otların içində dolaşmalı, o havanı udmalı, o məzərələri öz gözlərilə görməli, sükutun səsini dinləyib onun içindən ayırıb güllə, bomba səslərini və insan bağırtılarını, savaşın ruhunu duymalıdır. Ancaq bundan sonra nə isə yazmaq iqtidarında ola bilərsən. Qarabağa, onun həsrətinə, onun şərəfinə layiq əsəri ilk olaraq əskər yazdı. Sənətçilər ondan sonra yazacaq.

Bağlılıq əvvəlcə könüldə olmalıdır

- Türkiyə ilə Azərbaycan əlaqələri başda olmaqla, digər Türk dövlətlərinin arasındakı könül bağını necə dəyərləndirirsiniz?

- Bu bağlılıq bəzən göz qarşısındadır (Türkiyə ilə Azərbaycan kimi), kimlərdəsə gizli görünür (aydınlar, sadə vətəndaşlar arasında olan kimi), kimlərdəsə yox kimidir. Kültür adamları öz işlərini görməlidirlər, zorla, yaxud şüarla bu işi tezləşdirmək, məncə, olmaz. Hər şey öz özünə "bişməli", həyata gəlməlidir. Hər şey ondan asılıdır ki, Türkiyə də, Azərbaycan da dinamik şəkildə iqtisadi və kültürəl inkişafdan qalmasınlar, dünyada öz layiqli yerlərini tutsunlar və bunu əldən verməsinlər. O zaman o biri ölkələr də, nəinki türkdilli ölkələr, o biri ölkələr də yanımızda olacaq. Bağlılıq ilk növbədə könül bağlılığı olmalıdır. O biri bağlılıq növləri bunun üzərindən gələcək.